**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi
Əmr 036
«06» mart 2000-cı il
Sədr _______________ H. Babayev

# Azərbaycan Respublikasında fəaliyyət göstərən investisiya fondlarının vahid reyestrinin aparılması

# Q A Y D A L A R I

## 1. Ümumi müddəalar

Bu Qaydalar «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikasının Qanununun, «İnvestisiya fondları haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 05 yanvar 2000-ci il tarixli 245 nömrəli Fərmanının, «İxtisaslaşdırılmış çek investisiya fonları haqqında» Azərbaycan Respublikasının Prezidentinin 14 may 1997-ci il 579 nömrəli Fərmanının və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında» Əsasnamənin tələblərinə müvafiq olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən investisiya fondlarının vahid reyestrinin aparılması qaydasını müəyyən edir.

## 2. İnvestisiya fondlarının vahid reyestrinin aparılması

2.1. İnvestisiya fondu (bundan sonra - Fond) Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin (QKDK) müvafiq xüsusi razılığını (lisenziyanı) aldıqdan sonra onun barədə məlumatlar İnvestisiya Fondlarının Vahid Reyestrinə (bundan sonra - reyestr) daxil edilir.

2.2. Reyestrə aşağıdakı mə'lumatlar daxil edilir:

- investisiya fondu haqqında mə'lumatın reyestrə daxil edilmə tarixi;
- investisiya fondunun tam adı və növü (açıq və ya qapalı);
- investisiya fondunun hüquqi ünvanı;

- dövlət qeydiyyat nömrəsi və tarixi, hesablaşma hesablarının rekvizitləri;

- QKDK tərəfindən verilmiş lisenziyanın qeydiyyat nömrəsi və tarixi;

- lisenziyanın qüvvədə olma müddəti;

- investisiya fondunun icra orqanı haqqında mə'lumat;

- reyestrdə olan mə'lumatlara dair, investisiya fondunun nizamnaməsinə müxtəlif əlavələr və dəyişikliklər haqqında məlumat;

- nizamnamə kapitalının həcmi;

- səhmlərin buraxılışı qeydiyyata alındıqdan sonra səhmlərin nominal dəyəri və miqdarı və bu barədə dəyişikliklər haqqında mə'lumatlar;

- investisiya fondunun ləğv edilməsi barədə mə'lumat, kim tərəfindən qərarın qəbul olunması (qərarın nömrəsi və tarixi), reyestrdən çıxarılması tarixi.

2.3. İnvestisiya fondu qiymətli kağızlar bazarında səhmlərini yerləşdirərkən hər hansı bir vasitəçinin xidmətindən istifadə etdikdə, vasitəçi haqqında reyestrə aşağıdakı mə'lumatın salınması zəruridir:

- vasitəçinin tam adı və hüquqi ünvanı;

- vasitəçinin lisenziyasının nömrəsi və tarixi;

- investisiya fondunun vasitəçi ilə bağladığı müqavilənin tarixi və nömrəsi, qüvvədə olma müddəti.

2.4. İnvestisiya fondunun müdiri (müdiriyyəti) haqqında mə'lumat:

- fondun müdirinin (müdiriyyətinin) tam adı və hüquqi ünvanı;

- investisiya fondu müdirinin (müdiriyyətinin) qiymətli kağızlarla fəaliyyət üzrə lisenziyasının nömrəsi və tarixi;

- investisiya fondu və müdir arasında bağlanmış müqavilənin tarixi və nömrəsi, qüvvədə olma müddəti.

2.5. İnvestisiya fondunun auditoru haqqında məlumat:

- auditorun tam adı, hüquqi ünvanı;

- auditorun lisenziyasının nömrəsi və tarixi;

- investisiya fondu və auditor arasında bağlanmış müqavilənin tarixi və nömrəsi, qüvvədə olma müddəti.

2.6. İnvestisiya fondunun depozitarisi haqqında mə'lumat:

- depozitarinin tam adı və hüquqi ünvanı;

- depozitarinin lisenziyasının nömrəsi və tarixi;

- investisiya fondu və depozitari arasında bağlanmış müqavilənin tarixi və nömrəsi, qüvvədə olma müddəti.

2.7. İnvestisiya fondunun reyestr saxlayıcısı haqqında mə'lumat:

- reyestr saxlayıcısının tam adı və hüquqi ünvanı;

- reyestr saxlayıcısının lisenziyasının nömrəsi və tarixi;

- investisiya fondu və reyestr saxlayıcısı arasında bağlanmış müqavilənin tarixi və nömrəsi, qüvvədə olma müddəti.

## 3. İnvestisiya fondlarının vahid reyestrinin aparılması

3.1. İnvestisiya fondlarının vahid reyestrinin aparılması QKDK-nın müvafiq departamenti tərəfindən həyata keçirilir.

3.2. Reyestrə daxil olan məlumatlar möhürlənmiş xüsusi kitabda diyircəkli qələm ilə yazılır.

## 4. Məsuliyyət

4.1 Bu Qaydaların tələblərini pozanlar mövcud qanunvericilik aktlarına müvafiq qaydada məsuliyyət daşıyırlar.

## 5. Qüvvəyə minməsi qaydası

5.1. Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minirlər.